

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə

# Qərar № 134

***Bakı şəhəri, 10 sentyabr 2009-cu il***

«Yanğın təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli, 106 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. «Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 aprel tarixli, 239 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin qərara 1 nömrəli əlavə — «Azərbaycan Respublikası Dövlət orqanlarının fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə funksiyaları»nda «Azərbaycan Respublikası DİN» hissəsinin ikinci abzasından *«, yanğınların»* sözü çıxarılsın.

1.2. həmin qərarla təsdiq edilmiş «Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında Əsasnamə»nin 9-cu bəndinin altıncı abzasında *«DİN hərbiləşmiş yanğından mühafizə idarəsinin yanğınsöndürmə»* sözləri *«FHN Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə»* sözləri ilə, 10-cu bəndində *«Respublika DİN çevik yanğınsöndürmə hissələri və bölmələrinin»* sözləri *«Azərbaycan Respublikası FHN yanğından mühafizə qurumunun»* sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 iyun tarixli, 103 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 6, maddə 381; 2002-ci il, № 11, maddə 675; 2004-cü il, № 9, maddə 750, № 12, maddə 1077; 2006-cı il, № 9, maddə 822; 2007-ci il, № 2, maddə 185; 2008-ci il, № 5, maddələr 430, 432) ilə təsdiq edilmiş «Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri qaydaları»na aşağıdakı dəyişikliklər və əlavə edilsin:

2.1. 7.136-cı bəndin ikinci cümləsində *«Dövlət yanğından mühafizə idarələrinin»* sözləri *«yanğından mühafizə və yanğın nəzarəti qurumlarının»* sözləri ilə, üçüncü cümləsində *«yanğınsöndürmə dəstəsini»* sözləri *«yanğından mühafizə qurumunu»* sözləri ilə əvəz edilsin.

2.2. 8.66-cı bənddə *«mühafizə»* sözündən sonra *«və yanğın nəzarəti»* sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 dekabr tarixli, 220 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 12, maddə 871; 2007-ci il, № 12, maddə 1336; 2009-cu il, № 2, maddə 144; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 avqust tarixli, 122 nömrəli qərarı) ilə təsdiq edilmiş «Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları»nın 10.16-cı bəndinin dördüncü cümləsində *«mühafizə»* sözündən sonra *«və yanğın nəzarəti qurumları»* sözləri əlavə edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***